AZƏRBAYCAN ORDUSU
5 avqust.-2020

# Vətən sevgisi

*Şeir duyum deməkdi. Duyumu güclü olanlar sözün sıralanmasıyla gözəl poetik mənalar yarada bilir. Bu, şeiriyyətə bələdlikdi. Şeiriyyətə bələdliyin yaş həddi olmur. Aydan məktəblidir. Həm yaxşı oxuyur, həm də şeiri sevir. Qürurlanırsan ki, bu yaşda uşaq Vətənin müqəddəsliyini duyur. Onun şəhidlərimizə yazdığı şeir də Vətənə sevgi kimi oxunur. Kəlbəcər rayon (Abşeron) 20 saylı tam orta məktəbin 8-ci sinif şagirdi Aydan Aslanlı redaksiyamıza şeirlər göndərib. Şeirlərinin mahiyyəti deyir ki, Aydan gələcəkdə hansı peşəni seçirsə-seçsin, incə duyumu, şeirə, şeiriyyətə bağlı duyumu onun əsl vətəndaş kimi formalaşacağının, cəmiyyətdə özünəməxsus mövqe tutacağının zəmanətidir.*

**"Azərbaycan Ordusu"**

Aydan ASLANLI

## Analar deyir ki, Vətən sağ olsun…

Vətən gözümüzün nurudur deyə,
Şəhidlər ölməzdir, Vətən bölünməz,
Sizin ruhunuzun qüdrətidir ki,
Bu yerdə düşmənlər bir də görünməz.

Bu torpaq qanınla müqəddəsləşib,
Qanındır torpağı ucalaşdıran.
Sənin qətiyyətin, qüdrətin olub
Üç rəngli bayrağı göyə qaldıran.

İşğaldan qurtarar torpaqlarımız,
Əsgər oğulların qətiyyətiylə.
Döyüş yolunuzu davam etdirər,
Əsgər qardaşların sədaqətiylə.

Dağın gözlərinin qaçır yuxusu,
Əsgər yuxusundan oyanan kimi.
Ana Vətən dedin sən də Vətənə,
Qorudun Vətəni sən anan kimi.

Bu yay axşamında göylər duydu ki,
Xalqın Mübarizi, Muradları var.
Şəhidlik bu xalqın taleyindədir,
Bu xalqın yenilməz Poladları var.

Bu yay axşamında, bu gecə vaxtı
Göylərdən ulduzlar axır, şəhidim.
Səsinə səs verər Mübariz, Fərid,
Onları döyüşə çağır, şəhidim.

Əsgərlər qoymaz ki, Azərbaycanda
Ana-bacıların gözləri dolsun.
Şəhid anaları bizə deyir ki,
Millətim sağ olsun, Vətən sağ olsun.

## Şəhidim

Sənin qeyrətini, döyüş ruhunu,
Düşmənlər döyüşdə gördü, şəhidim.
Vüqarlı bir dağdı Vətənə sevgin,
Düşmənə nifrətin Kürdü, şəhidim.

Qələbə ruhunun eynini gördüm,
Göylərdən yerlərə gələn səsdə sən.
Vətən torpağını qoruyan əsgər,
Vətən, torpaq dedin son nəfəsdə sən.

Sən də şəhid oldun Vətən yolunda
İndi hər ürəkdə heykəlin vardır.
Sən də döyüşürdün, sənin yolunu
Davam etdirənlər nə bəxtiyardır.